# Azərbaycanla Pakistan arasında hərbi sahədə əməkdaşlıq genişlənir





Dekabrın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Amcad Xan Niazi ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə pakistanlı qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirələrini ehtiramla anıb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

General-polkovnik Z.Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın olduğunu, Azərbaycan-Pakistan əlaqələrinin və strateji tərəfdaşlığının yüksələn xətlə inkişaf etdiyini qeyd edib.

Pakistan İslam Respublikasının müdafiə nazirinin salamlarını çatdıran admiral M.A.X.Niazi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində belə görüşlərin və qarşılıqlı əlaqələrin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonda ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Bakıda Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Amcad Xan Niazinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, əvvəlcə Hərbi Dəniz Qüvvələrində rəsmi qarşılanma mərasimi keçirilib. Pakistan Hərbi Dəniz Qüvvələrinin komandanı fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himni səsləndirilib.

Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad edilib.

Sonra Pakistan nümayəndə heyətinin rəhbəri "Fəxri qonaqlar kitabı"nı imzalayıb.

Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral S.Bəkirov qonaqları salamlayaraq ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

Nümayəndə heyətinə Hərbi Dəniz Qüvvələrinin tarixi və fəaliyyəti haqqında geniş brifinq təqdim edilib.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən admiral M.A.X.Niazi hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə Azərbaycanla Pakistan Hərbi Dəniz Qüvvələri arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra hərbi gəmilərə baxış keçirilib, onların taktiki-texniki xüsusiyyətləri, həmçinin gəmi heyətinin yerləşməsi və qidalanması ilə bağlı nümayəndə heyətinə məlumat verilib.

Azərbaycan. - 2022.- 2 dekabr.- S.2.